

## ŞAHMƏMMƏD DAĞLAROĞLU

### *İNSAN və İNSAF*

Son hərfin dəyişəndə "insan" "insaf" olurmuş,
Yalvarıb-yaxarırsan, insafa gəlmir insan.
Sən demə, insaflılar həyalı, saf olurmuş,
İnsan olmaq çətinsə, çalış ki, saf olasan.

### *DƏYİŞİR ZAMAN*

Yaxşını yamana qatıb yoğurduq,
İndi bu kündəni harda bişirək?
Yaxşını tapdayıb, yamanda durduq,
Bilmədik, günahkar başdı, ya ürək.

Qapıda əlcək yox, açılır üzə,
Deyirik, o üzdən olsun bir gələn.
Adam var, əyridən əyri, möcüzə,
Dik gəzir, var-yoxu qırıq, köndələn.

Beləcə, günbəgün dəyişir zaman,
Qiyməti heç olub arın, qeyrətin.
Olmazın dəbdəbə, şərait, imkan,
Yaşamaq günbəgün mənasız, çətin.

Naşılıq üzündən günün birində,
Bu divar uçacaq öz başımıza.
Miras rəqibiyik - yerli-yerində,
Xəbər aparan yox qardaşımıza.

Əcəb qulu olduq nəfsin, tamahın,
Saldıq özümüzü əzaba, dərdə.
Çatacaq yeri var çəkilən ahın,
Bəlkə ah çəkmədim mən daha bir də.

### *ŞAİRƏ YAR OLMAQ ÇƏTİN İŞDİ, QIZ*

Nə çoxdu dünyada sənət, sənətkar,
Şairə yar olmaq çətin işdi, qız.
Məcnundu, Söz adlı bir Leylisi var,
Şairə yar olmaq çətin işdi, qız.

Sevdinsə, üz vermiş ən ağır qəza,
Gözləmə adına bir şeir yaza.
Nəyinə gərəkdir ömürlük cəza?
Şairə yar olmaq çətin işdi, qız.

Gecələr yuxudan durub yazacaq,
Xəyallar ardınca gedib, azacaq.
Gecə yazdığını gündüz pozacaq,
Şairə yar olmaq çətin işdi, qız.

Şair sevən gözəl şux, alagözdü,
Hədiyyə yerinə verdiyi sözdü.
"Bəxtimdi" deyənlər bezmədi, dözdü,
Şairə yar olmaq çətin işdi, qız.

Varı - qürurudu, varı yaxşıdı,
Yarı iradlıdı, yarı yaxşıdı.
Qal atan evində, qarı, yaxşıdı,
Şairə yar olmaq çətin işdi, qız.

### *ORUCLUQQABAĞI NİYYƏTİM*

"Bugün"ün sonunda ün, "sabah"in sonunda ah,
Ünümü bu gün eşit, sabah gec olar, Allah!
Eşitməkçün ünümü, yetmək üçün dilimə,
Daha artıq ömür ver, Allahım, sevgilimə!

## KEÇİB

Dinlə məni, igidim,
Yadda saxla, nə dedim.
Gələn günə ümidim
Sənli sabahdan keçib.

Az olub mənə bablar,
Yonub məni əzablar.
Qazandığım savablar
Yüz cür günahdan keçib.

Dost dosta tən olunca,
Mən gəlib "mən" olunca,
Torpaq Vətən olunca,
Millət silahdan keçib.

Nə deyər, dinsə lallar,
Çin olarmı xəyallar?
Göz tökən cah-cəlallar
İti tamahdan keçib.

Nə verər boş anmalar,
"Kaş ki"lər, boş "amma"lar?
Ağlaşlı boşanmalar
Toylu nikahdan keçib.

Üşüdüm üşüm-üşüm,
Baş tutunca görüşüm.
Səadətim, gülüşüm
Ağrıdan, ahdan keçib.

Əzrayıl - quş, ölüm - dən,
Bəxtim keçib əlimdən.
İş var ki, "mən ölüm"dən,
İş var, "vallah"dan keçib.

Varmı əzab çəkməyən,
Göz yaşını içməyən?
Həqiqətdən keçməyən,
Şübhədən, gahdan keçib.

Eşit, Babək nəvəsi,
O gələn, girov səsi...
Qılınc tutmaq həvəsi,
Nökərə şahdan keçib.

Sinəmiz dəlik-dəlik,
Hərəmiz bir heykəlik.
Kişiyə biganəlik
Rəzil, bədxahdan keçib.

Dağlarım uca, qarlı,
Qarabağ qara barlı.
El üçün kişi, arlı,
Maldan, mətahdan keçib.

İş - oxumaq, oxutmaq,
Yeri gəlsə, ox udmaq.
Göz yaşları axıtmaq,
Bizə timsahdan keçib?

De sözümü yetənə,
Oğul olaq Vətənə!
Döyüşdə bayraq önə
Cəsur, agahdan keçib.

And içək canımıza,
Gün doğsun şanımıza!
Çəsarət qanımıza
Bir yol izahdan keçib.

Xainlər alçalarlar,
Sevinib əl çalarlar.
Gözümdəki çalarlar
Qandan, siyahdan keçib.

Vətən Vətən olunca -
Düşməndən öc alınca,
Gedək qeyrət dalınca
Neçə cinahdan keçib.

Durduraq ağıları,
İşlədək ağlı, arı.
Məhv edək yağıları,
Vallah-billahdan keçib.

Yurd itir bir az-bir az...
Dərindən düşün bir az.
Yox, daha, belə olmaz,
"Haqqa pənah"dan keçib!

Haqq bizə arxa, dirək,
Kimik, nəyik bildirək.
Ya ölək, ya öldürək,
Səbir - Allahdan keçib.